*Nizamişünaslıq 10, №1, 2024, səh. 138-147*

https://doi.org/10.59849/3006-2403.2024.1.138

***Əlimuxtar MUXTAROV***
***Filologiya üzrə fəlsəfə doktoru***
***AMEA-nın Gəncə Bölməsi***
***Nizami Gəncəvi Mərkəzi***
***E-mail: nizamicenter1141@gmail.com***

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA NİZAMİ GƏNCƏVİYƏ HƏSR OLUNMUŞ BƏDİİ ƏSƏRLƏRİN TƏDQİQİ TARİXİ VƏ POETİKASI

*Açar sözlər:* Azərbaycan ədəbiyyatı, Nizami Gəncəvi obrazı, həyatı əksetdirmə üsulları, şeir, roman, dram, hekayə

Elmi tədqiqatlarda Nizami Gəncəvi haqqında tarixi faktların çətinliklə əldə olunması səbəbindən tədqiqatçılar şairin həyat yolunu öz əsərlərinə istinadən işıqlandırmağa çalışmışlar. Şairin poemaları onun həyatı haqqında verdiyi məlumatlarla nə qədər zəngindirsə, psixoloji portretinin yaradılması istiqamətində də çox material verir. Azərbaycan alimləri dahi mütəfəkkirin poemalarının bu məziyyətindən müvəffəqiyyətlə istifadə edərək, Nizami Gəncəvi haqqında tarixi-bədii əsərlərin yaradıcılarına aydın istiqamətlər vermişlər.

Firidun bəy Köçərli ilk dəfə olaraq Nizami Gəncəviyə həsr olunmuş bədii sənət nümunəsindən bəhs açaraq, Mirzə Məhəmməd Axundzadənin şeirlərini əsərinə daxil etmişdir. Şeirin məzmununun Nizaminin qəbrinin və türbəsinin dağılması haqqında olduğunu da “münasibi-hal deyə” vurğulayaraq öz münasibətini daha da qüvvətləndirmək məqsədini izləmişdir [32].

Salman Mümtazın adı bədii ədəbiyyatda Nizami obrazınının öyrənilməsi tarixinin ilk səhifələrinə düşür. Alim”Şeyx Nizami” məqaləsində türk ədəbiyyatında şairin xatirəsinə həsr olunmuş şeir haqqında bəhs edərək, yazırdı: “Nizamini hər bir əsərin pişvaları pişvaədd edərək, təqdir etmişlər və bu günə kimi kimsə onun “Xəmsə”sinə cavab söyləməmişdir” [34, 347].

M.Mübarizin “Dahi sənətkarın obrazı” məqaləsi (1940) öz dövründə Həmid Araslı, M.S.Ordubadi kimi nizamişünasların əsərləri ilə bərabər səviyyədə bədii təxəyyülə qüvvət verə bilən əsərlərdən idi. Məqalədə ədəbi-bədii qaynaqlara istinadən Nizami Gəncəvinin ədəbi şəxsiyyətinin mümkün istiqamətlərdə dolğun şəkildə işıqlandırılması şair və yazıçıların yaradıcılıq fəaliyyətinə istiqamət verə biləcəyini ehtimal etməyə imkan verir [36, 264].

Məhəmməd Əmin Rəsulzadənin “Nizami” monoqrafiyası da şairin ədəbi obrazının dolğun ifadəsi baxımından bədii təxəyyülün üfiqlərini genişləndirən mənbələrdən biridir. Müəllifin öz dilindən əsərin yazılması və ərsəyə gəlməsi baxımından maraqlı məlumatlar əldə edirik. Monoqrafiya Nizaminin 800-cü doğum ildönümü münasibətilə qələmə alınmış, 1941-ci ildə tamamlanmışdırsa da, II Dünya müharibəsi ərəfəsindəki çətinliklər səbəbindən nəşri gecikmişdir. Müəllifə görə, “bu gecikmə bir yandan müəllifin təəssüfünə səbəb olmuşdursa da, o biri yandan hər keçən il əsərin daha dolğunlaşmasına və gözəlləşməsinə yaramış; yeni materiallar, əlavələr, təsvirlər və haşiyələr gətirmişdir” [39, 11]. M.Ə.Rəsulzadənin əsəri şairin daxili aləminin yüksək ədəbi üslubla tərənnümü baxımından günümüzə qədər öz əhəmiyyətini qoruyub saxlayır.

Həmid Araslının ədəbi fəaliyyəti bədii ədəbiyyatımızda Nizami Gəncəvi obrazının formalaşdırılması baxımından xüsusilə diqqətəlayiqdir. Nizami Gəncəvi yaradıcılığını “İlkin Azərbaycan renessansının zirvəsi” kimi elmi təhlilə cəlb edən tədqiqatçı uzunmüddətli və zəngin araşdırmaları sayəsində dahi şairin həyat və yaradıcılığını bədii-publisistik üslubla

işıqlandıran “Şairin həyatı” [9] adlı sənədli povestini də yazmışdır. Əsər Gəncədə 1139-cu ildə baş verən dəhşətli dağıdıcı zəlzələnin təsviri ilə və Nizami Gəncəvinin ulu babası İbrahim haqqında məlumatla başlayaraq şairin ölümünə qədərki dövrünü əhatə edir. Həmid Araslının “Şairin həyatı” əsəri ilə eyni zamanda yazılmış Mehdi Hüseynin “Nizami” dramı, Mirvarid Dilbazinin “Məhsəti” [14, 280] poeması(pyes) arasında oxşarlıqlar müşahidə etmək mümkündür. Bu baxımdan ədibin povestinin özündən sonrakı bədii əsərlərin yazılmasında rolu barəsində danışmaq imkanı qazanırıq.

Nizami Gəncəvinin künyəsinin Azadə Rüstəmovanın tədqiqatında dolğun şəkildə öz əksini tapması da bədii nəsr ustalarının bədii təxəyyülünün üfiqlərinin tarixin daha dərin qatlarına qədər genişlənməsi üçün imkanlar yaradırdı.

A.Rüstəmovanın tədqiqatında verdiyi faktlar öz xronoloji ardıcıllığı və dəqiqliyi ilə Oqtay Salamzadənin “Əsrlərin sirri” romanında öz ifadəsini tapmışdır.

Azadə Rüstəmova Nizaminin əsərlərində şairin ədəbi-bədii portretinin öyrənilməsinin elmi tədqiqat üçün önəmini vurğulayaraq yazırdı: “Nizami əsərlərinin, o sıradan “Leyli və Məcnun” əsərinin başlanğıc – proloq və sonluq – epiloq hissələri bütövlükdə ədəbi irsinin, təxminən, beş yaxud altı bölümündən biri olub araşdırıcıları günümüzə qədər çox zaman üst qatdan - formal cəhətdən cəlb etmişdir. Halbuki bu əsərlər Nizaminin sənətkar “mən”ini, şairin zamanının ictimai-tarixi hadisələrinə, dövrün fikir axınlarına münasibətini aydınlaşdırmaq üçün, eləcə də, mütəfəkkir, alim, filosof Nizamini həqiqətə daha yaxın şəkildə kəşf üçün tədqiqatçıya çox material verir. Bu hissələr Nizami həyatının bir çox cizgilərinə də işıq salır” [10, 517]. Azadə Rüstəmova Nizaminin dünyagörüşünün ilkin qaynağı kimi şairin ailəsini, doğulub böyüdüyü mühiti görürdü: “Şair şəhərli ailəsində doğulmuşdur. Ata-babasının nə sənətin sahibi olduğu məlum deyildir. Hər halda onlar zəmanələrinin işıqlı zəka sahibi, elin hörmətlilərindən olmuş, elmə-biliyə yüksək qiymət vermişlər. Nizaminin bilik dairəsinin əhatəliliyi buna sübutdur” [10, 473] Nizamişünas alim şairin əsərlərinə istinadən belə nəticəyə gəlirdi ki, o, mükəmməl mədrəsə təhsili görmüşdür, məntiq, tibb, hüquq, astronomiya və bununla əlaqədar astrologiya, coğrafiya şairin müdaxilə etdiyi sahələr idi [10, 473].

Nizaminin ədəbi simasının ən incə və dolğun cizgiləri A.Rüstəmovanın qələmində öz əksini bu şəkildə tapırdı: “Düha və zəhmət, Nizaminin təbiətində bütün həyatı boyu bu iki cəhət vəhdət təşkil edir”. Azərbaycan yazarlarının bədii əsərlərində Nizami Gəncəvi ilk növbədə azad şəxsiyyəti ilə yaddaqalan bir obrazdır ki, elmi tədqiqatlarda da ilk növbədə tarixən məhz bu məsələyə münasibət göstərilmişdir.

Nizami Gəncəvinin incəsənətdə və bədii ədəbiyyatda öyrənilmə tarixinə münasibətsiz qalmayan görkəmli alim yazırdı: “1937-1941-ci illərdə Nizami öz doğma xalqının dilinə tərcümə edilməyə başlanmışdır. Azərbaycanın şair və nasirlərindən S.Rüstəm, S.Vurğun, R.Rza, M.Rahim, M.Rzaquluzadə, Ə.Vahid, C.Xəndan və başqaları bu baxımdan geniş fəaliyyət göstərmişlər” [10, 574].

Azadə Rüstəmovanın fikirləri əsasında Azərbaycan nizamişünaslığındakı qeyd etdiyimiz xüsusiyyətlər növbəti mərhələdə yazıçı və şairlər tərəfindən diqqətlə öyrənilmiş, dahi şairin obrazının yaradılması istiqamətində bədii təxəyyülün bələdçisinə çevrilmişdir.

Azərbaycan ədəbiyyatında dünya şöhrətli şair və mütəfəkkir olan Nizami Gəncəvinin obrazının canlandırıldığı müxtəlif həcmli və müxtəlif janrda əsərlərin içində bütövlükdə şairin həyatına həsr olunmuş bədii nümunə, Oqtay Salamzadənin “Əsrlərin sirri” romanıdır, deyə bilərik.

Oqtay Salamzadənin “Əsrlərin sirri” romanı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin sələflərindən, özünün keşməkeşli həyatından və “Xəmsə”nin müqəddəs milli irsimizin ən dəyərli abidəsi kimi qorunub hifz edilməsindən bəhs edən üç hissədən ibarətdir. “Gəncə qapısı”, “Peyğəmbərin adaşı”, “Qızıl şir dəfinəsi” adlanan bu hissələrdə

Nizami Gəncəvi ilə yanaşı fəaliyyət göstərən bir sıra dünya şöhrətli dövlət və mədəniyyət xadimlərinin, xalq qəhrəmanlarının sənədli-bədii obrazları yaradılmış, ümumxalq hərəkatlarının möhtəşəm lövhələri sənətkarlıqla təsvir edilmişdir. Romandakı hadisələr XI-XII əsrlərdə cərəyan edir. Gözlərimiz önündə Azərbaycanın qüdrətli Atabəylərinin, Əbül Əla, Xaqani, Mücirəddin Beyləqani kimi şairlərinin, Xacə Ömər, Əbu Bəkr Qəzənfər, İmadəddin Dövlə, Əhsətan, üsyankar Bəndər kimi şəxsiyyətlərin obrazları canlanır. Rüstəm Əliyev əsərin məzmunu haqqında düşünürdü ki, "Əsərdə yüzlərlə obraz var. Bunların hamısı bilavasitə Nizami ilə bağlıdır. Bu boyda sanballı əsərdə Nizamiyə dəxli olmayan nə obraz var, nə hadisə, nə də söz. Elə sətir, elə cümlə, elə abzas yoxdur ki, hərflərə Nizami ətri çökməsin" [16.30]. Həqiqətən də, "Əsrlərin sirri" romanının fabulası öz başlanğıcını Nizami Gəncəvi künyəsində yer alan imzaların birincisindən – Müəyyəddindən götürərək şairin soykökünün həyat tarixçəsindən tutmuş oğlu – Məhəmmədin ömrünün sonuna kimi bir nəslin salnaməsidir. Rüstəm Əliyev əsərin bu cəhətinə diqqət çəkərək öz münasibətini bildirirdi: "Şairin ulu babası Müəyyəddinin, babası Zəkiəddinin, atası Yusifin, Gəncə qapısı düzəldən usta İbrahimin, uğursuz qasid Bayburanın və onun sədaqətli Yigidçukunun surətləri, habelə şairin dayısı Xacə Ömərin surəti və onların fəaliyyəti ilə bağlı hadisələrin yerli-yataqlı təsviri həmin o zəmini hazırlayır ki, onun üstündə pyedestal kimi Nizami Gəncəvinin nəhəng şəxsiyyəti ucalacaqdır" [16, 34]. Rüstəm Əliyev əsərin daha bir sahədə - Gəncənin ədəbi abidəsinin ucaldılmasında da əhəmiyyətindən bəhs etməklə O.Salamzadənin ədəbiyyat tariximiz üçün gördüyü işin qiymətini vermişdir: "Gəncənin təsviri, onun təkamülü və intibahı romanın ana xəttini təşkil edir. Gəncənin hələ indiyədək belə nəhəng abidəsi ucaldılmayıb! "Əsrlərin sirri" Gəncənin himnidir!" [16, 34].

Oqtay Salamzadənin "Əsrlərin sirri" romanının ehtiva etdiyi tarixi və ədəbi faktları Rüstəm Əliyevin elmi yeniliklərinin bədii ədəbiyyatda təzahürü kimi görürük. Müasir ədəbiyyatşünaslığımızdakı Nizamişünaslığın inkişafının ədəbiyyatımıza təsirini bu sahədə mütərəqqi hadisə kimi qiymətləndiririk.

Nizami Gəncəvi obrazının ədəbiyyatda bədii inikasının öyrənilməsi tarixi bu əsərlərin yazıldığı dövrlə üst-üstə düşür. Sistemli və davamlı olaraq şairin surətinin ədəbiyyatda və incəsənətdə əksi onun 800 illik yubileyinə hazırlıq ərəfəsinə təsadüf edir. Elə bu dövrdən də etibarən artıq ədəbi tənqid yazılan əsərlərə öz münasibətini bildirir, gələcək yaradıcılıq üçün yazıçı və şairlərin işini stimullaşdırırdı. "Ədəbiyyat" qəzetində dərc edilən və müəllifi C.Cahanbaxş olan "Nizamiyə dair iki hekayə" adlı ədəbi-tənqidi məqalə də məhz Ə.Məmmədxanlının "Afaq" və M.Əlizadənin "Şairin kədəri" hekayələrinə həsr olunuşdur [13].

Bu dövrdə, N.Gəncəviyə həsr olunan və daha çox təqdir və tənqid edilən əsərlərdən biri də M.Hüseynin "Nizami" dramıdır. M.İbrahimovun məşhur "Nizami dramı və tarixi dram məsələsi haqqında", dərc etdirdiyi məqalə M.Hüseynin "Nizami" dramına həsr olunmuşdur [27]. Elə həmin ildə M.A.Dadaşzadə, Əziz Şərif də drama öz elmi-ədəbi meyarları ilə "Kommunist", "Ədəbiyyat" qəzeti kimi mətbuat orqanlarında münasibət bildirirdilər.

Ümumiyyətlə, "Ədəbiyyat"qəzetinin beş avqust 1942-ci il tarixli iyirmi üçüncü nömrəsinin bir səhifəsi bütövlükdə Mehdi Hüseynin "Nizami" dramının səhnədə canlandırılması hadisəsinə həsr edilmişdir. Qəzetdə əməkdar incəsənət xadimi Ədil İsgəndərovun "Quruluşçu rejissorun qeydləri" [29], Azərbaycan Dövlət Dram Teatrının baş rəssamı, əməkdar incəsənət xadimi H.Fətullayevin "Nizami" əsərinin bədii tərtibatı" [17], Respublikanın xalq artisti S.Ruhullanın "Əbdək obrazı" [40], Əməkdar artist R.Əfqanlının "Nizami obrazı" [15], əməkdar artist S.Hacıyevanın "Afaq" məqalələri və Ə.Ağayevin "Nizami" adlı geniş məqaləsi dərc edilmişdir [4].

Ə.Ağayevin ayrı-ayrı mətbuat orqanlarında nəşr olunmuş “Nizami” məqaləsi dramın məzmununun, ideyasının təhlili və tənqidi ilə bağlıdır [4]. Müəllif əsərin ədəbiyyat tariximiz üçün əhəmiyyətini belə qiymətləndirirdi: “... bu əsər bizim teatrımızda “Vaqif”lə açılmış yolun yeni, lakin xüsusi bir mərhələsidir”. Məqalədə dramın müasir tarixi proseslərlə səsləşməsi də onun əhəmiyyəti kimi vurğulanırdı: “Nizami” tarixi temaya həsr edilməsinə baxmayaraq müasir əsərdir. O, bu günün ən mühüm siyasi-ictimai məsələləri ilə yaxından bağlanır, xalqı mübarizəyə çağırır. Azərbaycan xalqı tarixin bütün dövrlərində olduğu kimi, indi də öz azadlığını, istiqlaliyyətini, torpaqlarını müdafiə etmək uğrunda ən çox qorxulu və yırtıcı bir düşmənlə vuruşur. “Nizami” pyesası xalqımızın qəlbindəki müqəddəs kin alovunu şölələndirir. Bizim hər birimizi öyrədir, bu böyük mübarizə günlərində hər kəsin öz yerini, mövqeyini tanımasına kömək edir”. Məqalə sona qədər bu əhval-ruhiyyə ilə davam etdirilərək, əsərin dövrün siyasi ideologiyasına tabe etdirilməsinə haqq qazandırırdı. Göründüyü kimi, Ə.Ağayev drama M.İbrahimovdan fərqli olaraq birtərəfli, tendensiyalı yanaşmışdır. Lakin Ə.Ağayev əsərin zəif cəhətlərini də işıqlandırmağa çalışmışdır. Müəllifin nəzərindəki zəif cəhətlərdən biri kimi Mehdi Hüseynin Nizamini daha artıq dərəcədə müasirləşdirməməsinə diqqəti çəkir. Ə.Ağayev əsərdə Nizaminin bir ideoloq kimi obrazının tamamlanmasını tənqid edirdi: “O, Nizaminin varlığın yaranması, dinə olan münasibətini, siyasi fikirlərini verərkən dərinləşmir, üzdən keçir. O, Nizaminin dili ilə “Əsl qüvvət tarixin səhvini düzəldən hökmdardır. Azərbaycanın belə bir hökmdara ehtiyacı vardır”- deyərək siyasi hakimiyyət, onun forması, şəxsiyyət və cəmiyyət məsələlərini irəli atmışdır. Lakin avtor bunları həll etmir, açıq buraxıb gedir”. Müəllif bunu yalnız Nizami obrazının qüsuru kimi görmür, bütün əsərə aid edirdi. Məqalədə əsərdəki hadisələrin inkişafında motivləşdirmənin də zəif olduğu haqlı olaraq bildirilirdi.

“Nizami” dramının yazıldığı dövrdə bu qədər tənqidlə qarşılanması Mehdi Hüseynin özünü də düşündürürdü. Ədibin bu məsələyə münasibətini ən yaxşı ifadə edən mənbə onun öz gündəliyidir. Gündəlikdə ədibin maraqlı fikirlərinə rast gəlirik : “1943, 6 mart. Bu gün “Nizami”nin 25-ci tamaşasıdır. Operada “Koroğlu” oynandığı üçün mənim tamaşaçım azdır. Cəmisi üç min manatlıq bilet satılmışdır. Bu, əlbəttə, azdır. Lakin mən sevinirəm. Gələn tamaşaçılar çox diqqətlə qulaq asırlar. Görünür, ziyalılardır. Artistlər böyük həvəslə oynayırdılar, xüsusilə Əfqanlı xüsusi bir ilhamla oynayırdı. Rolunu çox sevir”. Və yaxud; “Mən özüm “Nizami”nin böyük nöqsanlarını görürəm. Lakin bu nöqsanların çoxu tamaşaçıya güzəştə gedib yazdığım səhnələrdir. Ah, bu güzəştlər olmasaydı!..” [22, 1-2].

Yəhya Seyidov da Mehdi Hüseyn yaradıcılığına həsr etdiyi “Mehdi Hüseynin yaradıcılıq yolu” (1966) və “Mehdi Hüseyn” monoqrafiyalarında “Nizami” dramını ətraflı təhlilə cəlb etmiş, əsərin ideya-bədii istiqamətini, ədəbiyyat tariximizdə yerini və əhəmiyyətini zaman süzcəgindən keçirərək müəyyənləşdirməyə çalışmışdır.

Nizami Gəncəvi obrazını özündə canlandıran əsərlərdən biri də Zeynal Xəlilin “Şairin yuxusu” mənzum dramıdır. Dramla bağlı olan elmi tənqidi məqalələr, əsasən, keçən əsrin 70-ci illərinə məxsusdur ki,bu da daha çox Z.Xəlilin arxivi əsasında tədqiqat aparan İmran Abbasovun fəaliyyəti ilə bağlıdır. Tədqiqatçının iki – “Şairin arxivini vərəqlərkən” [2] və “Zamanla birlikdə” [3] məqalələri Z.Xəlilin Nizami Gəncəviyə həsr olunmuş və ilk variantda “Gəncə qartalı” və ya “Nizami” adlanan mənzum dramı haqqında yazılmış ən geniş və sanballı elmi araşdırmalardandır. Birinci məqalədə əsərin yazılması və üzə çıxarılması ilə yanaşı, dramın məzmunundan da geniş bəhs olunur. İkinci məqalə isə daha çox əsərin ideya istiqamətini işıqlandırır.

Qeyd etdiyimiz kimi bütün dövrlərdə bədii ədəbiyyatda Nizami Gəncəvi obrazının öyrənilməsi aktual olmuşdur. Bu baxımdan Yavuz Axundlunun “Məmməd Səid Ordubadi” adlı monoqrafiyası tarixi roman janrının yeni aspektdən öyrənilməsi baxımından əhəmiyyətlidir [7].

M.S.Ordubadi irsinin öyrənilməsi ədəbiyyatşünaslığımızın bu gün də aktual məsələlərindən biri kimi diqqətimizi çəkir: “Son yüz ildə Azərbaycan ordubadişünaslığı, əsasən, tanınmış ədəbiyyatşünaslardan Yavuz Axundlu, İsa Həbibbəyli, Fəridə Vəzirova, Tofiq Rüstəmov, Əkbər Məftun, Bəxtiyar Əsgərov, Nuridə Bağırovanın və başqalarının tədqiqatlarından ibarətdir. Həmin araşdırmaların əksəriyyəti isə kiril əlifbası ilə kitab halında nəşr olunduğundan və keçmiş sovet ideologiyası dövrünə təsadüf etdiyindən demək olar ki, hazırda elmi dövriyyədən kənarda qalmışdır” [45]. Azərbaycan ədəbiyyatşünaslığında tarixi roman janrının inkişaf yolunun sistemli şəkildə öyrənilməsi və elmi-nəzəri tədqiqi Yavuz Axundlunun adı ilə bağlıdır. Tarixi romanlara həsr etdiyi tədqiqatları ilə o, bu janrın elmi epopeyasını yaratmışdır.

Y.Axundlu öz araşdırmalarında belə qənaətə gəlir ki “M.S.Ordubadi tarixi roman janrına təsadüfən müraciət etməmiş, bu janr vasitəsi ilə xalqımızın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, başlıcası isə mübariz ruhunu təbliğ etmək istəmişdir. Müəllif yazılarının birində tarixi mövzuda yazılmış əsərlərin rolundan bəhs edərək deyirdi: “Azərbaycan xalqının tarixi irslərini üzə çıxarmaq lazımdır. Çünki yeni nəslə özünün kim olduğunu göstərməklə, onun vətənpərvərlik duyğularını inkişaf etdirmək mümkün olacaqdır” [7, 207]. Tədqiqatçıya görə, M.S.Ordubadi tarixə yalnız keçmiş hadisələr məcmusu kimi baxmırdı, tarixə gələcək naminə müraciət edirdi. Bu fikirlərinin isbatı olaraq M.S.Ordubadidən sitat gətirərək yazırdı: “Gizli Bakı” romanında öz qəhrəmanlarının birinin dili ilə deyirdi: “Tarixsiz insan yaşaya bilməz! İnsan keçib gəldiyi yolları tez-tez xatırlamalı və ondan dərs almalıdır. Gələcəyin yollarını təyin etmək üçün keçmişi unutmamalıyıq” [7, 207].

Y.Axundlu eyni fikri M.S.Ordubadinin dilindən də səsləndirirdi: “Əlbəttə, M.S.Ordubadi Azərbaycan xalqının çoxəsrlik tarixinin saxtalaşdırılmasına təəssüflənməyə bilməzdi. “Bu gün biz islamiyyətdən sonra orta və yuxarı Asiya xalqlarının həyatına dair yazılan tarixi kitabların hansı birini nəzərdən keçirmiş olsaq, orada xalq hərəkatına həsr edilmiş səhifələrin uydurmalar ilə dolu olduğunu görə bilərik” [7, 213].

Akademik İsa Həbibbəyli “Böyük ədəbiyyat nəhəngi-Məmməd Səid Ordubadi” monoqrafiyasında yazır: “Qılınc və qələm” Nizami Gəncəvinin və müasirlərinin romanı, Nizami epoxasının ədəbiyyat üslubunda yazılmış tarixidir. Məmməd Səid Ordubadi hələ keçən əsrin 30-40-cı illərində keçmiş sovet ideologiyasının xalqa soykökünü, tarixini unutdurmaq, manqurtlaşdırmaq vəzifələrini dövlət səviyyəsində həyata keçirdiyi bir zamanda “Qılınc və qələm” tarixi romanını yazmaqla Azərbaycanda milli-mənəvi özünüdərk proseslərinin tarazlığını qoruyub saxlamağa, dərinləşdirməyə şərəflə xidmət göstərmişdir” [19, s.87-88].

N.Bağırovanın “M.S.Ordubadi və tarixi roman janrı”, F.Vəzirovanın “M.S.Ordubadi”, M.Əkbərin “M.S.Ordubadi” monoqrafiyaları da ədəbiyyatımızda Nizami obrazının öyrənilməsi istiqamətində görülmüş mühüm işlərdəndir.

Azərbaycan ədəbiyyatının tarixi dram janrında N.Gəncəvi obrazının təsvir edilməsi baxımından N.Həsənzadənin “Atabəylər” dramı da xüsusi çəkiyə malikdir. Mənzum tarixi dram kimi xüsusi əhəmiyyətə malik olan “Atabəylər” dramı (1984) elmi tədqiqatda “Səməd Vurğunun “Vaqif” mənzum dramının yarandığı vaxtdan (1938) keçən təxminən qırx ildən artıq zaman ərzində bu janrda ədəbi-mədəni mühitin fövqünə qalxa bilən sanballı bir əsər” kimi dəyərləndirilir [20, 11].

“Atabəylər” dramında Nizami Gəncəvinin ədəbi siması üç epizodda ətraflı şəkildə öz bədii ifadəsini tapmışdır. Nizami bir mütəfəkkirdir, təbibdir, siyasi proseslərə müdaxilə edən söz sahibidir, həm də dünya nemətindən könlünü üzüb guşənişinliyə çəkilmiş bir zahiddir. Nizami Gəncəvinin əsərlərindən yeri gəldikcə misallar gətirilməsi surəti dolğunlaşdırır, əsərin

məna gücünü artırır. Azərbaycan dilinin milli mədəniyyətimizin inkişafından kənarda qalması narahatlığının Nizami Gəncəvi yaradıcılığında öz ifadəsini tapdığı kimi, dramın da problematikasını zənginləşdirmişdir.

Görkəmli akademik Ziya Bünyadov və Əbülfəz Rəhimovun "Tarixi həqiqətlər...Yoxsa təhriflər?" məqaləsi bəhs etdiyimiz pyesin öyrənilməsi və tədqiqi tarixində xüsusi əhəmiyyət daşıyır [10, 164-181] Eyni zamanda, Zəminə Mehdiağa qızı Axundovanın "Tarixi pyeslərin Azərbaycan teatrında səhnə təcəssümü" [6, 157] və Aida Nadir qızı Abdullayevanın "Azərbaycan mənzum tarixi dramaturgiyası və müasirlik" [1, 143] adlı namizədlik dissertasiyalarında da "Atabəylər" pyesi geniş təhlilə cəlb olunmuşdur.

Akademik İsa Həbibbəylinin Nəriman Həsənzadənin "Atabəylər" dramına yazdığı "Müasirlik işığında bədii yanaşma" adlı ön sözü də Nizami Gəncəvi obrazının yaradılması məsələlərinə müasir elmi münasibət baxımından diqqətəlayiqdir [20, 11].

Müxtəlif dövrlərdə M.İbrahimov "Atabəylər" [28], F.Rzayev "Atabəylərlə görüşə az qalıb" [41] və F.Hüseynov "Atabəylər" [23] adlı məqalələri ilə dramın ədəbiyyat tariximizdəki yeri, səhnə təcəssümü bu vəya digər şəkildə işıqlandırmışlar.

Ağayeva Kəmalənin "Məhsəti" pyesi də ədəbiyyatşünaslığımızda müəyyən qədər qiymətləndirilmişdir. Vidadi Qafarlının "Məhsəti Gəncəvi obrazı Azərbaycan səhnəsində" məqaləsi bu əsərin təhlili və təbliği istiqamətində görülmüş işlərdəndir ki, dramaturqun və yaradıcılığının tanıtdırılmasında müəyyən rol oynamışdır.

Müasir ədəbiyyatşünaslığımızda daha çox tendensiyalı yanaşmalar ilə yadda qalan əsərlərdən biri kimi Nizami Gəncəvi obrazının da ehtiva olunduğu İsa Hüseynovun "GurÜn" povestinin bədii-estetik siqlətinin müəyyənləşdirilməsi baxımından Nizami Cəfərovun "İsa Muğannanın həqiqəti, yaxud həqiqətin İsa Muğannası" [13] məqaləsi böyük əhəmiyyət kəsb edir.

Rüstəm Kamalın "İsa Muğanna: Ün və İşıq məqamı" [31] adlı məqaləsi də İsa Muğanna yaradıcılığını izləyən ideya bağlarının üzə çıxarılması baxımından diqqəti çəkir.

Tahirə Məmmədin "Muğannanın Ün və Gurünü" məqaləsi son dövrlərdə İsa Hüseynovun yaradıcılığı haqqında söylənilən dəyərli fikirləri əhatə edir [33].

Əlimuxtar Muxtarov "Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda" monoqrafiyasında yuxarıda adlarını sadaladığımız əsərlərlə yanaşı, eyni zamanda A.N.Zöhrabbəyovun "Odlu diyar" romanını, Ə.Məmmədxanlının "Afaq", C.Məmmədovun "Portret" hekayələrini, M.Hüseynin "Nizami" pyesini və digər əsərləri tarixilik və müasirlik yanaşması ilə geniş tədqiqata cəlb edərək hər bir əsəri tarixi gerçəklik aspektindən nəzərdən keçirərək elmi dəyərlərini almışdır.

Nizamişünas alim, professor Rüstəm Əliyev "Böyük roman, dar koma" (O.Salamzadənin "Əsrlərin sirri" romanı əsasında) məqaləsində Azərbaycan ədəbiyyatında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəviyə həsr edilən bədii və incəsənət əsərlərinin tədqiqi tarixi və poetikası kontekstində çağdaş nizamişünaslıq üçün olduqca aktual olan bu mövzu haqqında yazır: "Nizami Gəncəvinin həyatına həsr olunmuş əsərlərin çoxalmasına olan ehtiyacı və "Əsrlərin sirri" romanının əhəmiyyətini görkəmli nizamişünas Rüstəm Əliyev "Böyük roman, dar koma" (Oqtay Salamzadənin "Əsrlərin sirri" romanı barədə) dilə gətirirdi: "Oqtaydan əvvəl Nizaminin dövrü və həyatı barədə həm xırda, həm də Məmməd Səid Ordubadinin "Qılınc və qələm" kimi bədii cəhətdən oxunaqlı romanı yazılmış, İsa Hüseynovun və Eldar Quliyevin ssenarisi əsasında iki seriyalı (açığını desək, o qədər də uğurlu çıxmayan) "Nizami" filmi çəkilmiş, Mehdi Hüseynin eyni adlı dramı səhnə təcəssümünü tapmışdır. Bu qıtlığın özü də özlüyündə nə isə deyir, daha doğrusu, onu göstərir ki, bu dörd-beş damladan Nizaminin böyük həyatını öz anbarlarında gizlədən nəhəng gəmilərin üzməsi üçün dəryaya pay ola bilməzdi" [38, 92].

Nizamişünas alimin dilə gətirdiyi və konkret faktlara əsaslandığı problem göründüyü kimi təkcə bədii ədəbiyyatla bağlı olmayıb, eyni zamanda incəsənətlə də, daha dəqiq desək, kino sənəti ilə də birbaşa bağlıdır. Nizamişünas alim, professor Xəlil Yusifli də Rüstəm Əliyevlə bu mövzuda eyni düşüncədə idi. O da öz növbəsində söhbətlərində filmdən danışanda Nizami Gəncəvinin film sarıdan bəxtinin gətirmədiyi qənaətini formalaşdırırdı. Və ifadə edirdi ki, baxmayaraq ki, filmdə Nizami obrazını Azərbaycanın görkəmli sənətkarı Müslüm Maqamayev oynayır, ancaq yenə də filmin Nizami ruhunu əks etdirməməsini ifadə edirdi. Bizim də zənnimizcə hər iki alim fikirlərində haqlı idilər.

Amma bütün bunların fonunda Azərbaycan ədəbiyyatında, incəsənətində Nizami Gəncəviyə həsr ediləcək arzuladığımız bədii əsərin də, filmin də yolunu gözləyərkən bu istiqamətdə ümidsiz olmamağımıza dəlalət edən xeyli səbəblər var.

Nəzərə alsaq ki, Nizami Gəncəvi haqqında yazılan, çəkilən əsərlərin hər biri sovet dövründə xüsusi senzuradan keçdikdən sonra həyata vəsiqə qazanırdı, deməli, nizamisevərlərin axtardığı Nizami Gəncəvi mənəviyyatı, ruhaniyyəti yetərincə qabardıla bilməzdi. Nəinki qabardıla, hətta filmdə yer alan bir çox məlum səhnələrə əsasən, deyə bilərik ki, gerçək Nizami Gəncəvi və onunla bağlı olan real, həyati mətləblər öz məhvərindən xeyli uzaqda təsvir edilir.

Digər cəhətdən ümidsizliyimizi ümidə çevirən müstəqil dövlətdə müstəqil düşüncəli alimlərin, yazıçıların, şairlərin, ssenaristlərin əhatəsində yaşamağımızdır ki, bu da bizi axtardığımız gerçək Nizami Gəncəliyə qovuşacağımıza ruhlandırır. Bu kontekstdə akademik İsa Həbibbəyli yazır: Bu mərhələnin nizamişünaslığı o şeylərdən yazır ki, onları sovetlər zamanında yazmaq olmamışdır. Müasir nizamişünaslıq Nizami türk oğlu türkdür, türkçüdür yazır. Hansı ki, Sovet İttifaqının dövründə bunu demək mümkün deyildi. Bugünkü nizamişünaslıq Nizami oğuz türküdür deyir və ucadan, yüksək səslə deyir. Çağdaş nizamişünaslıq Nizaminin atası Yusif də, anası Rəisə də, dayısı Xacə Ömər də, dostu Əbubəkir ibn Xosrov əl-Ustad da türkdür deyir. Amma bunları sovetlər zamanında demək mümkün deyildi. Doğrudur, Rusiya da daxil olmaqla o dövrdə sovetlər Nizamini azərbaycanlı kimi qəbul edirdilər. Nizamiyə sahib çıxma anlayışı sovet dövründə olmayıb, lakin sovet ittifaqı bütün xalqları əridib sovet xalqı anlayışı yaratmağa çalışdığı üçün biz Nizamiyə ancaq azərbaycanlı deyib keçirdik. Hansı ki, onun nəsil şəcərəsinə, ümumtürk islam şərqinin mütəfəkkiri kimi baxa bilmirdik. Bu anlayış müasir nizamişünaslığın meydana gətirdiyi reallıqdır, ideyalardır.Cənab İlham Əliyevin əsasını qoyduğu və elan etdiyi nizamşünaslığın uğurlarıdır" [18, 821-822].

Professor Mahirə Hüseynovanın (Nağıqızı) da "Nizami Gəncəvi" kitabında yer alan analitik fikirləri müstəqillik işığında yaranacaq Nizami Gəncəvi obrazının konturlarını özündə ehtiva edir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci ilin Azərbaycan Respublikasında "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Sərəncam imzalayıb. Yanvar ayının 5-də imzalanan həmin Sərəncam özündə yalnız Azərbaycan yazılı ədəbiyyatının yaradıcılarından biri olmaqla bərabər, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, işıqlı olduğu qədər də ibrətamiz və mənalı əsərlərin müəllifi olan böyük şairin anadan olmasının 880 illiyini ehtiva etmir. Bu ali dövlət sənədi həm də daşıyıcısı olduğumuz dəyərlərin ötəri olmadığını, bəşər sivilizasiyasına böyük fikir sahibləri bəxş etmiş millətin o dəyərlər yolunu getməkdə israrını təsdiq edən sənəddir. Biz elə hesab etmirik ki, ancaq fövqəladə yaradıcılıq istedadına malik olan insanlar dahi-deyilərək çağırılır, dahi, bu keyfiyyətə malik olmaqla bərabər, həm də insanın missiyası olan yolda ona verilmiş ruhun daşıyıcısı, ötürücüsü olan şəxsiyyətlərdir. O, həmin ruhdur ki, insanlığın əbədi yol yoldaşı olmalıdır. 880 il əvvəl Gəncədə doğulan və bütün ömrü boyu yaşadığı şəhəri tərk etməsə də, öz ağlagəlməz zəhməti sayəsində fars və ərəb dillərini dərindən mənimsəyən, özünə qədər yaranmış türk, fars və ərəb

ədəbiyyatını, fəlsəfəsini mükəmməl öyrənən, iki dildə-türk və fars dillərində gözəl lirik, möhtəşəm epik şeir növləri yaradan Nizami Gəncəvi o ruhla yaşamış və yaratmışdır. 800 ildən artıq müddətdir ki, Nizami ancaq dərin məna yükü daşıyan əvəzsiz şeir yükü ilə deyil, həm də insanlara elmin qüdrətini təlqin edən, onları proqresdə olan yolun yolçusu olmağa dəvət edən bir missioner kimi Yaxın Şərqdən Orta Asiyaya qədər olan geniş coğrafiyada simvola dönübdür".

Tarixə, ədəbiyyat nəzəriyyəsinə əsaslanaraq deyə bilərik ki, hər bir şairə, yazıçıya, dramaturqa nəzərdə tutduğu, xəyalında canlandırdığı əsəri ərsəyə gətirməkdə təxəyyülü ilə yanaşı, elmi əsərlər də mühüm rol oynayır, bu baxımdan sadəcə 2021-ci ildə-Nizami Gəncəvi ilində Azərbaycan Milli Elmlər Akademiyasında çap edilən 68 nəşr nümunəsindən 45-nin fundamental müstəqillik məfkurəli monoqrafiya olması bu sahənin mütəxəssislərinə, nümayəndələrinə zəngin materialdır.

Beləliklə, Azərbaycan ədəbiyyatında müstəqillik məfkurəsi işığında Nizami Gəncəvinin hürr obrazının yaradılması, öyrənilməsi məsələləri bir əsrə qədər dövrü əhatə etməsinə baxmayaraq, hələ işin hərtərəfli tədqiqi başa çatdırılmamışdır. Mövzunun müasir ədəbiyyatşünaslıq tərəfindən sistemli şəkildə öyrənilməsi günümüzün aktual məsələlərindəndir.

ƏDƏBİYYAT


1. Abdullayeva A.N. "Azərbaycan mənzum tarixi dramaturgiyası və müasirlik", "Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya", Bakı, 2007, 143 s.
2. Abbasov İ. "Şairin arxivini vərəqlərkən", "Ədəbiyyat və İncəsənət", 25.01.1975
3. Abbasov İ. "Zamanla birlikdə", "Ədəbiyyat və incəsənət" 25.05.1984. N-21
4. Ağayev Ə."Nizami " "Ədəbiyyat"qəz., 05.08.1942, N 23
5. Ağayeva K."Məhsəti" pyesi, Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974, 139 s.
6. Axundova Z.M. "Tarixi pyeslərin Azərbaycan teatrında səhnə təcəssümü", "Sənətşünaslıq namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya", Bakı, 2005, 157 s.
7. Axundov Y. "Roman və tarix", Bakı, Yazıçı, 1988
8. Allahverdiyeva Z. "Azərbaycanda nizamişünaslığın təşəkkülü və inkişafı", Bakı, "Nurlan", 2007.
9. Araslı H. "Şairin həyatı", Bakı, 1940.
10. "Azərbaycan ədəbiyyatı tarixi", II cild, Bakı, Elm, 2007, səh.378.
11. Bünyadov Z., Rəhimov Ə. "Tarixi həqiqətlər...Yoxsa təhriflər" , "Azərbaycan" jurnalı, 1989 N-4,164-181 s.
12. Cahanbaxş C. "Nizamiyə dair iki hekayə", "Ədəbiyyat qəzeti" 18.05.1941
13. Cəfərov N. "İsa Muğannanın həqiqəti,yaxud həqiqətin İsa Muğannası", "525" q, 09.01.2014
14. Dilbazi M. "Məhsəti" pyes, "Seçilmiş əsərləri" Bakı "Lider nəşriyyatı" 2004, 280 s.
15. Əfqanlı R. "Nizami obrazı", "Ədəbiyyat"q.05.08.1942.N 23
16. Əliyev R. "Böyük roman, dar koma", "Ədəbiyyat və incəsənət" qəzeti, 15 dekabr 1989-cu il, N- 50 (2393)
17. Fətullayev H. "Nizami", "Ədəbiyyat"q. 05.08.1942.N 23
18. Həbibbəyli İ. "Nizami Gəncəvi ədəbi irsi: Heydər Əliyevdən-İlham Əliyevə", "Nizami Gəncəvi: Həyatı və yaradıcılığı", Bakı, "Elm", 2021
19. Həbibbəyli İ. "Böyük ədəbiyyat nəhəngi", Bakı, Elm və təhsil, 2012, 92 səh.
20. Həsənzadə N. "Seçilmiş əsərləri", Bakı, 2011(ön söz müəllifi İ.Həbibbəyli)
21. Hüseyn M. "Ədəbiyyat və Sənət məsələləri", Bakı, Azərbaycan Dövlət Nəşriyyatı 1953. 611 s.
22. Hüseyn M. "Mehdi Hüseynin Gündəliyindən", "Azərbaycan" jurnalı, 1979, N-6, s. 117

23. Hüseynov F. "Atabəylər", "Bakı", 28.01.1984
24. Hüseynov R. "İkinci olmayacaq", Bakı, "Elm və təhsil", 2023
25. Hüseynova M. "Büyük Azerbaycan mütefekkiri, "Türk ocakları derneği", Bursa şubesi, Türkiye, 2021
26. Xəlil Z. "Əsrim,taleyim mənim". Şeirlər və poemalar. Bakı, Azərnəşr, 1978. 252
27. İbrahimov M. "Nizami draması və tarixi dram məsələsi haqqında", "Ədəbiyyat qəzeti", N-33, (335) 15.12.1942
28. İbrahimov M. "Atabəylər", "Kommunist", 26.01.1984
29. İsgəndərov Ə. "Quruluşçu rejisorun qeydləri", "Ədəbiyyat" q, 05.08.1942
30. Kərimli T. "Nizami və tarix", Bakı, "Elm", 2002
31. Kamal R. "İsa Muğanna:Ün və İşıq məqamı" (İsa Muğanna qnostikasına giriş, 525 q 14.10.2013
32. Köçərli F. "Azərbaycan ədəbiyyatı", I cild, Bakı, 1978
33. Məmməd T. "Muğannanın Ün və Gurünü"www. ədəbiyyatinstitutu.az
34. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı, Yazıçı, 1986, səh.347
35. Muğanna İ. "Gürün"Bakı,Hədəf nəşrləri 2013 162 s.
36. Mübariz M. "Dahi sənətkarın obrazı",Bakı, Azərnəşr 1940,264 s
37. Muxtarov Ə. "Nizami Gəncəvi obrazı bədii ədəbiyyatda", Gəncə, "Elm", 2021
38. Muxtarov Ə. "Əsrlərin sirri romanında Nizami Gəncəvinin həyat və yaradıcılığının sirləri", "Nizamişünaslıq-N-7", Gəncə, "Elm", 2022
39. Resulzade M.E. "Nizami", Ankara, Milli Egitim Basımevi, 1951, 402 s.
40. Ruhulla S. "Əbdək obrazı", "Ədəbiyyat" q, 05.08.1942
41. Rzayev F. "Atabəylərlə görüşə az qalır","Bakı",16.11.1983
42. Salamzadə O. "Əsrlərin sirri" Bakı,Yazıçı 1989, 592 s
43. Tərbiyət M. "Danişməndani-Azərbaycan", Bakı, Azərnəşr, 1985, 460 s.
44. Yusifli X. "Nizaminin lirikası", Bakı, "Elm və təhsil", 2021
45. wikipedia.org/wiki/Nizami.az

***Алимухтар МУХТАРОВ***
***Доктор философии в филологии***

## ИСТОРИЯ ИЗУЧЕНИЯ И ПОЭТИКА ПРОИЗВЕДЕНИЙ ПОСВЯЩЕННЫХ НИЗАМИ ГЯНДЖАВИ В АЗЕРБАЙДЖАНСКОМ ЛИТЕРАТУРЕ
## *РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджанская литература, образ Низами Гянджеви, способы отражения жизни, поэзия, роман, драма, повесть

Трудное приобретение исторических фактов о Низами Гянджеви в научных исследований Азербайджана исследователей пытались осветить со ссылкой на работах собственной жизни поэта . Стихи поэта в дополнение к тому, богат информацией о ее жизни и психологического портрета самого материала для создания. Азербайджанские ученые успешно использующих заслугой великих стихов поэта дали четкие направления к автором которые писали исторических и литературных произведений об Низами Гянджеви.

Изучение работы образа Низами Гянджеви в истории Азербайджанской литературы несмотря охватывает период до одного века исчерпывающего

исследовательской работы но до сих пор не был закрыт. систематического изучения предмета с современной литературы актуальные вопросы современности.

В статье как в хронологическом порядке, так и с точки зрения литературоведения изучаются романы, посвященные Низами Гянджеви в азербайджанской литературе, драматические произведения, рассказчик.

***Alimukhtar MUKHTAROV***
***Doctor of Philosophy in Philology***

**THE STUDY AND POETICS HISTORY OF WORKS DEDICATED TO NIZAMI GANJAVI IN AZERBAIJANI LITERATURE**

***SUMMARY***

*Key words:* Azerbaijani literature, the image of Nizami Ganjavi, ways of reflecting life, poetry, novel, drama, story

The scientific study of the acquisition of hard facts on Nizami Gancavi researchers have tried to illuminate referring to the works of the poet's own life. Poems of the poet in addition to being rich in information about her life and psychological portrait of the very material to create. Master the art of the great poems scientists successfully using this məziyyətindən Nizami Gancavi clear directions given on the historical and literary works, authors.

The study of English literature Nizami Gancavi image covers the period up to one century of exhaustive research work still has not been finalized. Pressing issues of today's modern literature is a systematic study of the subject.

In the article, novels dedicated to Nizami Ganjavi in Azerbaijani literature, drama works, storyteller are studied both chronologically and from the point of view of literary studies.

***Daxil oldu: 10.05.2024-cü il***